1. Cari dərs ilində bir yoxlama və buraxılış imtahanı keçiriləcək. İmtahanlar səhər saat 10.00-da başlayır və 1 saat 30 dəqiqə davam edir.
2. **İmtahan başladıqdan 30 dəqiqə sonra gələn şagird imtahana buraxılmır.**
3. İmtahan **ana dili və riyaziyyat** fənləri üzrə aparılacaq.
4. Göstərilən fənlər üzrə imtahan sualları 1-dən 50-dək nömrələnmiş və fənlər üzrə aşağıdakı ardıcıllıqla sıralanmışdır:
   ana dili 1-25, riyaziyyat 26-50.
5. **İmtahan aparılan bütün fənlərdən bildiyiniz suallara cavab verməyiniz zəruridir.**
6. Yoxlama imtahanı 2010/11-ci dərs ilinin ikinci yarımilində keçiriləcəkdir.
7. Yoxlama imtahanının fənlər üzrə nəticələri sinif jurnalına yazılır və ikinci yarımilin qiymətləri çıxarılarkən nəzərə alınır.
8. İmtahan aparılan fənlər üzrə şəhadətnaməyə yazılacaq summativ (yekun) qiymət fənn üzrə mikrosummativ (yoxlama imtahanının nəticələri, VIII və IX (X) siniflərin illik qiymətləri) və makrosummativ (buraxılış imtahanı) qiymətlər əsasında hesablanır, bu zaman əsas üstünlük yoxlama və buraxılış imtahanlarının nəticələrinə verilir.
9. İmtahanlara **mobil telefon** gətirmək qəti **qadağandır**. **Üstündə mobil telefon olan şagird imtahandan xaric olunur**. İmtahanlarda mobil telefonda olmayan kalkulyatordan istifadə etməyə icazə verilir.
10. Cavab kartı üzərində sizin soyadınız, adınız, atanızın adı, oxuduğunuz məktəb, imtahan verəcəyiniz məktəb, otaq, yer, oxuduğunuz bölmə, variantınız və kodunuz haqqında məlumatlar Təhsil Nazirliyi tərəfindən hazır şəkildə verilir.
11. **Şagird otaq nəzarətçisində olan siyahıda soyadı və adının qarşısında imza qoymaqla imtahanda iştirak etməsini təsdiq edir.**
12. Hər fənn üzrə düzgün hesab etdiyiniz cavabları kartın **“Cavablar”** bölməsində tapıb, göy yaxud qara rəngli diyircəkli qələmlə nümunədə göstərildiyi kimi qaralayın.
    **Nümunə:** ˜
13. Hər bir fənn üzrə sualların 20%-nə qədər cavab verən şagird 2, 20%-dən 50%-nə qədər cavab verən şagird 3, 50%-dən 80%-nə qədər cavab verən şagird 4, 80%-dən 100%-ə qədər cavab verən şagird 5 qiymət alır. Məsələn, 25 sualdan 1-4 sualına düzgün cavab verən şagird 2, 5-12 sualına düzgün cavab verən şagird 3, 13-19 sualına düzgün cavab verən şagird 4, 20-25 sualına düzgün cavab verən şagird 5 qiymət alır.
14. Hər bir suala aid olan dairələrdən yalnız birini qaralamaq lazımdır. Əks halda cavabınız oxuyucu qurğu tərəfindən səhv cavab kimi hesab ediləcək.
15. Sizə verilən test kitabçasında göstərilən variantla cavab kartınızda qeyd olunan variantın uyğunluğunu yoxlayın və düzgünlüyünü cavab kartı üzərində imzanızla təsdiq edin.
16. **İmtahan müddətində cavab kartını verən şagird test kitabçasını da təhvil verir. Şagird imtahan test kitabçasını imtahan bitdikdən sonra imtahan mərkəzindən ala bilər.**
17. Cavab kartını əzmək, pozmaq və ləkələmək **olmaz.**
18. **Bunların hər hansı birinə düzgün riayət olunmadığı halda, sizin cavab kartınız etibarsız sayılacaq.**

**Əziz şagirdlər!**

***Sizə imtahanlarda uğurlar arzulayırıq!***

A Z Ə R B A Y C A N   R E S P U B L İ K A S I
T Ə H S İ L   N A Z İ R L İ Y İ

***Ümumi təhsil səviyyəsi üzrə yoxlama və buraxılış imtahanları***

**Ş A G İ R D   Ü Ç Ü N**

# Y A D D A Ş

**Bakı – 2010**